ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 6 (4914) • 25 İYUL 2020-ci il • Qəzet 1932-ci ildən çıxır

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev Ermənistanın təcavüzündən danışmışdır

Deyə bilərəm ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmşdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhəddini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ermənistan silahlı qüvvələri həmişə olduğu kimi yenə də heç bir beynəlxalq qaydaya əməl etmədən Azərbaycan ərazisinə növbəti dəfə təcavüz etmiş, vandalizm və barbarlıq aktları törətmişlər. Bunun nəticəsində Azərbaycan ordusu şəhidlər vermiş, mülki əhali arasında tələfat olmuş, evlər, həyətlər dağıdılmışdır.

Bu məsələlərə prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan nitqində aydınlıq gətirmişdir. Qeyd etmişdir ki, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olmuş, yaralanmışlar. Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etmişdir. Bizim Ermənistanla Azərbaycanın dövlət sərhəddində hər hansı bir hərbi məqsədimiz yoxdur.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbçilərimizin intiqamı alınmış, onların qanı yerdə qalmamış və düşmənə elə bir zərbə endirilmişdir ki, uzun illər bundan sonra da yaddan çıxarmayacaqlar.

Ölkə başçısı sonra göstərmişdir ki, Təhlükəsizlik Şurasının toplantısı çağırılmış, vəziyyət müzakirə edilmişdir. Operativ vəziyyət imkan verən kimi jurnalistlər, səfirliklərin nümayəndələri həmin bölgəyə dəvət ediləcək, onlar vəziyyətlə tanış olacaq və yerində görəcəklər ki, bu təxribatı törədən kimdir.

Düşmənin onlarla hərbçisi məhv edilmiş, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edilmişdir. O cümlədən onların postu və bütün infrastrukturu yox edilmişdir.

Son əməliyyatda Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürülmüş və işğalçılar o bölgələrdən qovulmuşdur.

Aprel döyüşlərində olduğu kimi, bu dəfə də mənfur qonşu ən çirkin əməllərə əl atmışdır. Bizim kəndlərimizi atəşə tutmuş və bunun nəticəsində 76 yaşında ağsaqqal Əziz Əzizov həlak olmuşdur. Mülki əhaliyə qarşı törədilən cinayətlər bir daha onu göstərir ki, Ermənistan faşist dövlətidir.

Sonra ölkə prezidenti nəzərə çatdırmışdır ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz. Torpaqların itirilməsi o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir.

Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmişdir.

Ermənistan tərəfindən törədilən hərbi təxribatın səbəbi Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır.

Ermənistanda demokratik prinsiplər tamamilə pozulub, Venesiya Komissiyasının tövsiyələri rədd edilib, siyasi opponentlər təqib olunur və diktatura hökm sürür. Ona görə də, indi Ermənistan rəhbərliyinə hansısa bir böhranlı vəziyyət lazımdır ki, ictimai fikri bu əsas məsələlərdən yayındırsın və bu təxribata şüurlu şəkildə əl atıldı.

Operativ məlumata görə, Ermənistanda bəzi kəndlər, şəhərlər boşalır. İndi panika yaranıbdır. Bax, fərq budur. Azərbaycan vətəndaşı öz torpağında ləyaqətlə yaşayır. Azərbaycan dövləti və Azərbaycan Ordusu onu qoruyur və qoruyacaqdır.

Çirkin əməlləri törədəndən və Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etmiş, yardım istəmiş, hay-haray qaldırmışdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər.

Daha sonra Prezident İlham Əliyev qeyd etdi ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır, kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır.

XİN beynəlxalq təşkilatlarda Azərbaycana ünvanlanan əsassız ittihamlara cavab verməlidir, susmalı deyil. Ölkə başçısı bu barədə dəfələrlə öz mövqeyini bildirib, göstərişlər verib. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını müşahidə etmirik. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Xarici İşlər Nazirliyi nə ilə məşğul idi son günlərdə?

Dövlət başçısı bütün vacib məsələləri xalq ilə bölüşür, həm məsləhətləşir, həm öz fikirlərini, öz siyasətini deyir və eyni zamanda, xalqı narahat edən problemləri dərindən təhlil edir. Təsadüfən deyilmir ki, xalqın gözü tərəzidir. Azərbaycanda hakimiyyət xalq hakimiyyətidir, xalqın iradəsinə əsaslanan hakimiyyətdir.

Bu günlərdə Azərbaycan tək qalmadı, qardaş Türkiyə Cümhuriyyəti və onun Prezidenti, Rəcəb Tayyib Ərdoğan Azərbaycanı dəstəklədi. Türkiyədən yenidən qardaşlıq, dostluq münasibəti gördük.

Pakistan birmənalı mövqe bildirib, Azərbaycanın haqq işinə öz dəstəyini verib. Eyni zamanda, digər ölkələrin rəsmi nümayəndələri də Azərbaycanı dəstəklədilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası açıqlama verib.

Ordumuzun uğurlu əməliyyatı və əldə edilmiş nəticələr, hərbi qələbə, təbii olaraq Azərbaycan ictimaiyyətində ruh yüksəkliyi yaratdı, xalqımızı coşdurdu. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi.

Ordumuzun düşmən hücumunu qəhrəmancasına dəf etdiyi gecə döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəldi. Ancaq əfsuslar olsun ki, sonra oraya görünür bu məsələ ilə bağlı haradansa xəbər tutmuş bəzi təxribatçı qruplar da daxil oldular. Onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdılar. Təbii ki, Daxili İşlər orqanları tərəfindən onların bu əməllərinə qısa müddət ərzində son qoyuldu.

Azərbaycan xalqı bundan sonra da öz dövlətinin və öz ordusunun yanında olacaqdır!

AZƏRBAYCAN DÖVLƏTİ VƏTƏNDAŞININ YANINDADIR

Namərd və xain düşmənin Tovuz istiqamətində törətdiyi növbəti təxribat nəticəsində rayonun mülki obyektlərinə, vətəndaşların evlərinə ağır artilleriyadan və minaatanlardan atəş açması nəticəsində mülki vətəndaşlara xeyli ziyan dəyib. Bundan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Ermənistanın təcavüzü nəticəsində əsas ziyan Tovuz rayonunun 6 yaşayış məntəqəsinə - Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərinə dəyib. İlkin qiymətləndirmələrə görə, dinc əhaliyə məxsus 35 evin müxtəlif dərəcədə ziyan çəkdiyi müəyyən edilib. İntensiv atəş nəticəsində dövlət əmlakına da zərər dəyib. Bunlar əsasən, kəndlərə çəkilən qaz boruları, elektrik naqilləri, sosial və rabitə infrastrukturudur. İşlərin gedişi dövlət başçısının şəxsi nəzarətindədir. Sərəncamla mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Fövqəladə Hallar Nazirliyinə tapşırılıb. Hazırda Prezidentin sərəncamının icrası ilə bağlı Tovuz rayonunda təcili tədbirlər görülür. Bu məqsədlə işçi qrup yaradılıb, mütəxəssislər cəlb edilib, ekspertlər dərhal Tovuz rayonuna ezam olunub. Vəziyyətlə bilavasitə yerində tanış olmaq üçün hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlaklarının, dövlət obyektlərinin vəziyyəti öyrənilir, ekspertlər tərəfindən müayinə və ekspertiza işləri aparılır. Dəymiş ziyanın qısa müddətdə qiymətləndirilməsi təmin ediləcək. Ekspertlər tərəfindən hazırlanacaq və təqdim ediləcək qiymətləndirmə məlumatlarına əsasən, dinc əhaliyə, yaşayış ərazilərinə, dövlət və bələdiyyə əmlakına, təsərrüfatlara, infrastruktura dəymiş ziyanın aradan qaldırılması ilə bağlı hökumət tərəfindən tədbirlər planı hazırlanacaq. Hərbi hücum nəticəsində zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin sürətlə həyata keçirilməsi üçün təkliflər Azərbaycan Prezidentinə təqdim ediləcək. Mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün bütün qüvvələr səfərbərliyə alınıb. Dəymiş zərər tezliklə aradan qaldırılacaq, infrastruktur və evlər bərpa olunacaq. Həyat tamamilə öz məcrasına qayıdacaq.

Dəfələrlə təsdiq olunduğu kimi, Azərbaycan dövləti vətəndaşının yanındadır. Dövlətimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşanları, canını fəda edənləri heç vaxt unutmur, onlara və ailələrinə hər zaman həssaslıqla yanaşır. Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində addımlar atılır.

ŞƏHİDLƏR ÖLMƏZ VƏTƏN BÖLÜNMƏZ

12-14 iyul 2020-ci il tarixlərində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki mövqelərimizi ələ keçirməyə cəhd edən düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuş Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, baş leytenant Rəşad Mahmudov, gizir Yaşar Babayev, gizir İlqar Zeynallı, çavuş Vüqar Sadıqov, MAXE əsgər Elçin Mustafazadə, əsgər Xəyyam Dünyamalıyev və əsgər Elşad Məmmədova Allahdan rəhmət, xalqımıza səbr diləyir, Şəhidlərimizin ruhu qarşısında baş əyirik.

Vətən Başın Sağ olsun!

Goranboylu gənclər Ali Baş Komandanın əmri ilə hər an silaha sarılmağa hazırdırlar

Respublikamızın hər yerində olduğu kimi, Goranboyda da gənclər könüllü olaraq ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edirlər.

İyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial- iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin çıxışından sonra yüzlərlə gənc sərtləş- dirilmiş karantin rejiminin tələblərinə əməl olunmaqla Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Goranboy rayon şöbəsinə müraciət edib və müvafiq qaydada qeydiyyata alınıb. Azərbaycan ordusunda könüllü xidmət etmək haqqında arzularını ifadə edənlər arasında hərbi xidməti başa vurmuş, müxtəlif sahələrdə çalışan gənclər, idmançılar, müharibə vete- ranları var. Könüllü olaraq orduda xidmət etmək və mənfur düşmənə qarşı döyüşlərə qatılmaq üçün müraciət edən gənclərə müvafiq qanunvericiliyin tələbləri ətraflı izah olunub, atdıqları bu addım yüksək qiymətləndirilib.

Könüllülər işğal altındakı torpaq- larımızın azad edilməsi üçün Azərbay- can Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə hər an silaha sarılmağa hazır olduq- larını bildiriblər.

Dünənin siyasi rəqibləri rəqabəti unudub, bir yumruq kimi birləşdilər

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz istiqa- mətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə etdilər.

Ölkə ərazisində fəaliyyət göstərən siyasi partiyalar da bu prosesdən geri qalmadılar, həmrəylik nümayiş etdirdilər, Ali Baş Komandanın yanında olduqlarını bəyan etdilər. Dünənin siyasi rəqibləri Vətən təhlükədə olduğu anda rəqabəti unudub, təhlükəni dəf etmək üçün bir yumruq kimi birləşdilər.

43 partiya sədrinin imzaladığı Birgə Bəyanatda birmənalı şəkildə bildirilir: "Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükə- sizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəy- liyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordu- muzla qürur duyur, onunla bir oldu- ğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolun- ğda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik".

Ordumuzun Tovuz istiqamətində düşmən hücumunun qarşısını alması, canlı qüvvələrini və texnikalarını məhv etməsi xalq tərəfindən coşqunluqla qarşılandı. Xalq-ordu həmrəyliyi çərçivəsində döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına yürüş etdi. Ancaq əfsuslar olsun ki, hər zamankı kimi onların arasına Azərbaycan Xalq Cəbhəsinin üzvləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışdılar. Buna baxmayaraq heç bir daxili və xarici siyasi güc, Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini şübhəyə ala bilməz. Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir, xalqını dinləyir, hər bir addımını onunla məsləhətləşir, gələcəyini onunla birlikdə planlaşdırır və həyata keçirir.

Orduya könüllü yazıldım

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər kabinetinin iclasında etdiyi çağırışa minlərlə qoşulanlar- dan biri də mənəm.

Dövlət başçısının çağırışına qoşularaq döyüşə getmək üçün Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinin Goranboy rayon şöbəsində qeydiyyatdan keçdim.

Ölkə xaricindəki, daxilimizdəki düşmən- lərin bütün səylərinə baxmayaraq, Azər- baycan xalqı birdir, torpağının düşmən tapdağı altında olmasını qəbul etmir və heç zaman da qəbul etməyəcək. Ali Baş Komandan əmr verəcəyi gün hamımız bir nəfər kimi silaha sarılaraq torpaqlarımızı düşmən tapdağından xilas edəcəyik. O gün uzaqda deyil.

Emil Gündüz oğlu BAĞIROV.

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI MƏHƏRRƏM QULİYEVİN SAKİNLƏRLƏ GÖRÜŞLƏRİ

Tap Qaraqoyunlu kəndində

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev cəbhə bölgəsində düşmənlə təmas xəttində yerləşən Tap Qaraqoyunlu kəndində oldu, burada sakinlərlə görüşdü, onların problemləri ilə yaxından maraqlandı.

Şəfəq kəndində



Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Şəfəq kəndində oldu, burada sakinlərlə görüşdü, onların problemləri ilə yaxından maraqlandı. İcra başçısı kənddə elektrik enerjisi, təbii qaz və içməli su sahəsində yarana biləcək problemlərin dərhal aradan qaldırılması ilə bağlı, aidiyyəti məsul şəxslərə tapşırıqlarını verdi.

Goranboy Rayon icra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev mətbuat işçilərini təbrik etdi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncam ilə Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında ölkə rəhbərinin verdiyi sərəncamlar mətbuata və mətbuat işçilərinə göstərilən qayğının bariz nümunəsidir.

Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının öz əksini tapması ölkədə medianın azad, güclü bir cəmiyyət kimi formalaşmasına təkan verir. Bütün bu proseslərin iştirakçıları isə Azərbaycan jurnalistləridir.

Goranboy rayonunda fəaliyyət göstərən , əsası 1932- ci ildə qoyulan "Mübariz" qəzeti bu gun də rayonun ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır.

Mətbuat günü münasibətiə "Mübariz" qəzetinin kollektivi başda olmaqla bütün jurnalistləri təbrik edir , yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Milli Məclisin deputatı Ağalar Vəliyevin "Mübariz" qəzeti kollektivinə təbriki

Əsası H. Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə qoyulmuş Milli Mətbuatımızın yaranmasından 145 il ötür. Məhz bu tarix, "Əkinçi" qəzetinin işıq üzü gördüyü gün, 22 iyul Milli Mətbuatımızın yarandığı gün kimi tarixə düşmüşdür.

Mən deputat seçildiyim Goranboy rayonunun ictimai-siyasi qəzeti olan "Mübariz" qəzetinin kollektivinin simasında dövlətimizi sevən, millətimizin dərdini öz dərdi bilən bütün jurnalistləri təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram.

Milli Məclisin deputatı Anar Məmmədov "Mübariz" qəzeti redaksiyasına təbrik ünvanladı

"Maarifdən, elmdən məhrum olan bir xalq işıqdan məhrumdur" deyən dahi mütəfəkkir Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzetinin nəşrindən 145 il ötür. 22 iyul 1875-ci ildə işıq üzü görmüş Azərbaycan milli mətbuatı yarandığı gündən cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun mürəkkəb və tarixi təkamül yolu keçərək, bu günkü səviyyəyə çatmışdır.

Hər cür qadağalardan azad olan Azərbaycan Milli mətbuatı hazırda xalqımıza, müstəqil dövlətimizə xidmət edir, sələlərinin şərəfli yolunu layiqincə davam etdirir. Belə mətbu orqanlardan biri də Goranboy rayonunun ictimai-siyasi qəzeti olan "Mübariz" qəzetidir.

1932- ci ildən nəşr olunan "Mübariz" qəzeti digər movzularla yanaşı mənim seçicilərimlə görüşlərimi , qəbullarımı da oz səhifələrində işıqlandırır.

"Mübariz" qəzetinin peşəkar jurnalist kollektivi əvvəlki həyat tərzmizdə olduğu kimi mövcud karantin rejimində də dövlətimizə, dövlətçiliyimizə sədaqətlə xidmət edir, ölkə başçısının uğurlu daxili və xarici siyasətinin , eyni zamanda rayonda həyata keçirilən tikinti, abadlıq və quruculuq işlərininin rayon sakinlərinə çatdırılmasında üzərlərinə düşən vəzifənin öhdəsindən ləyaqətlə gəlirlər.

Bir daha Sizi Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, təməli Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə qoyulmuş Milli mətbuatımızın inkişafı və tərəqqisi yolunda uğurlar diləyirəm.

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI MƏHƏRRƏM QULİYEVİN SAKİNLƏRLƏ GÖRÜŞLƏRİ

Yuxarı Ağcakənd və Aşagı Ağcakənd qəsəbələrində

Goranboy rayon icra hakimiyyətin başçısı Məhərrəm Quliyev Aşağı Ağcakənd və Yuxarı Ağcakənd qəsəbələrində olmuş, burada sakinlərlə görüşmüş, onların problemləri ilə maraqlanmışdır. İcra başçısı ərazidə mövcud problemlərin həlli ilə bağlı, aidiyyəti məsul şəxslərə tapşırıq və tövsiyyələrini bildirmişdir.

Qarqucaq, Şəfibəyli, Hacallı kəndlərində

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Qarqucaq, Şəfibəyli və Hacallı kəndlərinin sakinləri ilə görüşdü, onların problemləri ilə yerində maraqlandı.

İcra başçısı burada əkin sahələrinin suvarma təminatının yaxşılaşdırılması məqsədi ilə aparılan subartezian quyusunun qazıntı işləri ilə də tanış oldu, bununla bağlı müvafiq tapşırıq və tövsiyyələrini bildirdi.

Məktəb tikintisi davam edir

Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti hörmətli Mehriban xanım Əliyevanın birbaşa tapşırığı və Heydər Əliyev Fondunun təşəbbüsü ilə, "Yeniləşən Azərbaycana Yeni Məktəb" layihəsi çərçivəsində Goranboy şəhər 1 nömrəli tam orta məktəbin tikinti işləri davam etdirilir.

Goranboy rayon İcra Hakimiyyəti başçısı Məhərrəm Quliyev mütəmadi olaraq tikinti işləri ilə yerində tanış olur.

”Təhsil, mədəniyyət, səhiyyə, sosial təminat və idmanın vəziyyəti haqqında”

T Ə H L İ L

Ümumi təhsil. 2019/2020 dərs ilinin əvvəlinərayonda fəaliyyət göstərən 79 dövlət gündüz ümumtəhsil məktəblərində 16617 nəfər şagird təhsil almış və ötən dərs ili ilə müqayisədə onların sayı 359 nəfər və ya 2,2 faiz artmışdır.

	2018/2019			2019/2020		
	Cəmi	Onlardan		Cəmi	onlardan	
		Şəhər	Kənd		Şəhər	Kənd
Məktəblərin sayı – cəmi	79	9	70	79	9	70
o cümlədən						
İbtidai	10		10	10		10
Ümumiorta	11	1	10	11	1	10
Tam orta	58	8	50	58	8	50
Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər						
Şagirdlərin sayı – cəmi, nəfər	16258	4284	11974	16617	4343	12274
o cümlədən:						
ibtidai məktəblərdə	237		237	243		243
Ümumi orta məktəblərdə	731	82	649	797	110	687
Tam ortaməktəblərdə	15290	4202	11088	15577	4233	11344
Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblərdə						
Müəllimlərin sayı, nəfər	2726	603	2123	2695	592	2103

Rayonda tam orta məktəb binalarının 26 faizi, ümumi orta məktəb binalarının21.5 faizi qəza vəziyyətindədir və bununla bərabər tam orta məktəb binalarının 22.4 faizinin əsaslı təmirə ehtiyacı vardır. Rayonda məktəb binalarınınhər birinin qızdırıcı və kanalizasiya sistemi vardır.

2019/2020 dərs ilinin əvvəlinə məktəblərdə mövcud olan kompüter texnikası aşağıdakı cədvəldə göstərilmişdir:

	Ümumi orta məktəblərdə		Tam orta məktəblərdə	
	Şəhər	Kənd	Şəhər	Kənd
Kompüterləri olan məktəblərin sayı:	1	10	8	50
Cəmi				
Məktəblərin ümumi sayına nisbətən, faizlə	*100*	*100*	*100*	*100*
İnterneti olan məktəblərin sayı:				
Cəmi	1	3	8	50
Məktəblərin ümumi sayına nisbətən, faizlə	*100*	*30*	*100*	*100*

Son illər ikinci növbədə məşğul olan şagirdlərin xüsusi çəkisinin artması meyli müşahidə olunur:

İkinci növbədə məşğul olan şagirdlərin sayı: 2018/2019 — 995; 2019/2020 — 1223

Cəmi, nəfər

Şagirdlərin ümumi sayına nisbətən, faizlə 6,1 — 7.4

Üçüncünövbədəməşğulolanşagirdlərinsayı:

Cəmi, nəfər

Şagirdlərin ümumi sayına nisbətən, faizlə

2020 -ci ildə ümumtəhsil məktəblərini 821 nəfər bitirmiş və ümumi orta təhsil haqqında attestat almışdır.

2020-ci ilin əvvəlinə 1 peşə məktəbi fəaliyyət göstərmiş və bu ilk peşə təhsili müəssisəsində 230 nəfər şagird təhsil almışdır ki,onlardan da 100 nəfəri qızlardır.

Mədəniyyət. Mədəniyyət və incəsənət müəssisələrinin sayının dəyişməsinə dair məlumatlar (ilin sonuna) aşağıdagöstərilmişdir:

	2018	2019
Teatrlar	0	0
Muzeylər	4	4
Kinoteatrlar	0	0
Klublar	59	59
Kitabxanalar	44	43

Mədəniyyət və incəsənət müəssisələrinə gələnlərin, kütləvi kitabxanalarda oxucuların sayı haqqında məlumatlar aşağıda göstərilmişdir:

Gələnlərin sayı, min nəfər	2018	2019
Teatrlara	0	0
Muzeylərə	14,9	21.6
Kino seanslara	0	0
Kitabxanalara	19,0	19.0

Pensiya təminatı. 2020-ci ilin əvvəlinə Sosial Müdafiə Fondunun rayon şöbəsində 11956 nəfər pensiyaçı qeydiyyatda olmuşdur. Pensiyaçıların 8373 nəfəri yaşa görə,03014 nəfəri əlilliyə görə, 569 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 219.91 manat təşkil etmişdir.

Ötən il 4117 nəfərə sosial müavinət təyin olunmuş və 1 nəfərə düşən orta aylıq məbləğ 114.37 manat olmuşdur.

2020-ci il yanvar ayının 1-i vəziyyətinə rayonda 6328 nəfərə ünvanlı dövlət sosial yardımı verilmiş və 1 nəfərə düşən orta aylıq məbləğ 50.54 manat təşkil etmişdir.

Səhiyyə. Əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün rayonda bir çox sosial təyinatlı obyektlər fəaliyyət göstərir.

2019-cu ildə rayon əhalisinin sağlamlığını qorumaq məqsədilə 3 xəstəxana, 23 ambulator-poliklinika müəssisələri fəaliyyət göstərirdi ki, onlarda da 131 həkim və 439 orta tibb işçisi çalışırdı. Beləliklə, rayon əhalisinin hər 10000 nəfərinə 12,5 həkim, 41,8 orta tibb işçisi, 20.5 xəstəxana çarpayısı düşür. 2018-ci illə müqayisədə 2019-cu ildə həkimlərin sayı dəyişməmiş, orta tibb işçilərinin sayı 0,9 faiz artmış, xəstəxana çarpayılarının sayı isə dəyişməz qalmışdır.

Əhalinin sağlamlığının qiymətləndirilməsinin əsas göstəricilərindən biri də xəstələnmə hallarından ibarətdir. Rayonda ötən il qeydiyyata alınmış xəstəliklər arasında tənəffüs orqanlarının xəstəlikləri, qan dövranı sisteminin xəstəlikləri, həzm orqanlarının xəstəlikləri üstünlük təşkil etmişdir.

İdman. 2019-cu ildə rayonda 224 idman qurğusu fəaliyyət göstərirdi. Onlardan 1 - 1,5 min və daha çox yer tutan stadion,1 - üzgüçülük hovuzudur. Rayon əhalisinin 20129 nəfəri və ya 19,2 faizi bədən tərbiyəsi ilə məşğul olur.

Bədən tərbiyəsi ilə məşğul olanlardan 8779 nəfəri qadınlardır ki, bu da rayonda yaşayan qadınların 16.9 faizidir.

ABUNƏ - 2020

2020-Cİ İLİN İKİNCİ YARIMİLLİYİ ÜÇÜN

MÜBARİZ

qəzetinə abunə yazılışı davam edir

ƏZİZ OXUCU, inanırıq ki, sən "Mubariz" qəzetinə biganə qalmayacaq, bu qəzetin abunəçisi olacaqsan. Axı rayonda yeganə mətbu orqandır ki, sənə tanış olan insanlardan, onların uğurlarından, rayonda olan yeniliklərdən, abadlıq və quruculuq işlərindən səni agah edir, yaşadığın rayonun qayğı və problemlərindən xəbərdar edir.

Hər sayı bir tarix olan "Mübariz" qəzetinə, doğma qəzetinizə abunə olun.

"Mübariz"in abunəçisi olmaq üçün redaksiyamıza müraciət edin.

Qəzetimizə həm nəqd, həm də köçürmə yolu ilə abunə yazılmaq olar.

Bildiririk ki, "Mübariz" qəzeti bank hesablarını Kapital Bank ASC-nin Goranboy filialında aparılır.

Kapital Bank ASC-nin Goranboy filialı
Kod 200509
VÖEN 9900003611
Müxbir hesab:AZ 37 NABZ 01350100000000001944
SWİFT BİK AİİBAZ 2 x
"Mubariz" qəzeti redaksiyası
VÖEN 6100034821
Hesab N-si 38070019445000226150

Buraxılış imtahanlarında ən yüksək nəticə

(COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınmaq məqsədi ilə Nazirlər Kabineti tərəfindən verilən qərarlara əsasən Azərbaycan Respublikası ərazisində bir çox işlər görüldü, hər bir sahədə müvəqqəti dəyişikliklər edildi. Karantin rejimi müddətində təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırıldı. Şagirdlər təhsillərini onlayn şəkildə davam etdirməyə məcbur oldular. Yaranmış vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi buraxılış və qəbul imtahanları qaydalarında da müəyyən dəyişikliklər etməyi zəruri gördü.

Belə ki, buraxılış imtahanları respublika ərazisində iyun və iyul aylarında bölgü əsasında bir neçə gündə keçirildi. İmtahanlar bütün bölgələrdə, o cümlədən də Goranboy rayonu ərazisində, yeni sanitar-gigiyenik qaydaları əsasında aparıldı.

Lakin vurğulamaq istəyirəm ki, ölkəmizdə pandemiya dövründə yaranan bu hal abituriyentlərimizin təhsildə göstərdikləri nəticələrə heç də mənfi təsir göstərmədi. Şagirdlərimiz yenə də yüksək nəticələrlə buraxılış imtahanlarını başa vurdular.

Hətta sevindirici hallardan biri də o oldu ki, Goranboyumuzun yetirməsi imtahan nəticələrinə əsasən respublika üzrə həmin gündə ikinci yeri tutaraq rayonumuzun fəxri oldu.

Qızılhacılı qəsəbə M.Dosiyev adına 2 saylı tam orta məktəbin 11-ci sinif şagirdi Leyla Rizvan qızı Şirinova 18 iyun tarixində keçirilən buraxılış imtahanında 294.1 bal toplayaraq həmin gün üzrə respublika 2-cisi oldu. Azərbaycan dili fənnindən cəmi iki suala səhv cavab verən Leyla rayonumuzun birincisi adına da layiq görülmüş oldu.

Leylanın öz sözlərinə əsasən, arzusu Bakı Ali Neft Məktəbinə daxil olmaqdır. Biz də diləyirik ki, buraxılış imtahanlarında göstərdiyi yüksək nəticəni qəbul imtahanlarında da təkrarlasın. Və leyla Şirinova adı qəbul imtahanlarında da ən yüksək bal toplayanlar sırasında yazılsın. Uğurlar sənə, Leyla!

N.MİRZƏYEVA.

2020-ci ildə Goranboy rayonunda əkinlərin uçotu

2020-ci il iyun ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə cari ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin qəti uçotu keçirilimişdir.

Hesabat məlumatlarına əsasən 2020-ci ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 45972,0 hektar olmuş və keçən illə müqayisədə1107,0 hektar və yaxud 2,5 faiz artmışdır.

Rayon üzrə əkilmiş ümumi sahələrdən 4,8 faizi kənd təsərrüfatı müəssisələri, 95,2 faizi isə ailə kəndli və ev təsərrüfatları tərəfindən əkilmişdir.



Goranboyrayonu üzrə əkin sahəsinin 23260.0 hektarını və yaxud 50,6 faizini dənli və dənli paxlalı bitkilərin, 5379.0 hektarını və ya 11,7 faizini texniki bitkilər, 1875.0 hektarını və ya 4,1 faizini kartof, tərəvəz və bostan bitkilərinin, 15458.0 hektarını və yaxud 33,6 faizini isə yem bitkilərinin əkin sahələri təşkil etmişdir.

Əvvəlki ilə nisbətən dənli və dənli paxlalı bitkilər 295,0 hektar; kartof, tərəvəz və bostan bitkiləri 10,0 hektar; yem bitkiləri 1457,0 hektar artmış, texniki bitkilər isə 655,0 hektar azalmışdır.

Dənli və dənli paxlalı bitkilərin 8066,0 hektarını buğda,13365,0 hektarını arpa, 1820,0 hektarını qarğıdalı, 9,0 hektarını isə lobya əkin sahələri təşkil etmişdir.

Ümumi əkin sahəsinin 1875,0 hektarını və ya 4,1 faizini kartof, tərəvəz və bostan bitkiləri əkinlərinin payına düşmüşdür. Bunun da 474,0 hektarını kartof, 1291,0 hektarını tərəvəz, 110,0 hektarını isə bostan bitkilərinin sahəsidir.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kartofun əkin sahəsi 3,0 hektar və yaxud 0,6 faiz artmış, tərəvəzin əkin sahəsi 7,0 hektar və yaxud 0,6 faiz artmış, bostan bitkilərinin sahəsi isə dəyişməmişdir.

Texniki bitkilər 5379,0 hektar əkilmiş və ümumi əkin sahəsinin 11,7 faizini təşkil etmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən 655,0 hektar az əkilmişdir. Əkilən sahənin 2776,0 hektarı pambıq, 82,0 hektarı şəkər çuğunduru, 2510,0 hektarı günəbaxan, 8,0 hektarı isə tütün bitkisinin payına düşür. Əvvəlki ilə nisbətən pambıq, şəkər çuğunduru, günəbaxan bitkiləri müvafiq olaraq 326,0 hektar, 98,0 hektar, 234,0 hektar azalmışdır. Tütün bitkisinin əkin sahəsi isə dəyişməz olaraq qalmışdır.

Rayon ərazisində ilk dəfə olaraq bu il 3,0 hektar dərman üçün lavanda bitkisi əkilmişdir.

Ümumi əkin sahəsinin 15458,0 hektarı və ya 33,6 faiziyem bitkilərinin payına düşür. Yem bitkiləri əvvəlki ilə nisbətən 1457,0 hektar və ya 10,4 faiz armışdır. Cari ildə əkilmiş çoxillik otlarının əkin sahəsi 1466,0 hektar (9,5 faiz), keçmiş illərin çoxillik otlarının əkin sahəsi 13887,0 hektar (89,8 faiz), toxum və yem üçün birillik otlar isə 105,0 hektar (0,7 faiz) təşkil edir.

M.ƏSGƏROV,
Goranboy rayon Statistika İdarəsinin rəisi

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

“Mübariz” qəzeti redaksiyası bildirir ki, 2020-ci ildə qəzetimizdə dərc ediləcək elanların qiyməti aşağıdakı kimidir.

1. Sənədlərin itməsi (etibarsız sayılır) – 10 manat
2. Ad günlərinin təbriki (şəkillə) – 20 manat
3. Kotirovka sorğuları – 20 manat
4. Nekroloq – 20 manat
5. Başsağlığı – 10 manat

Qeyd: digər reklam, elan və anons xarakterli sifarişlərin qiyməti isə səhifədə tutacağı həcmə və mahiyyətinə görə hesablanır.

ETİBARSIZ SAYILIR

●Xınnalı kənd sakini Hamayıl Rəfi qızı Verdiyevaya verilmiş torpağa mülkiyyət hüququna dair JN-144 (Kod 50922018) nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

●Xoylu kənd sakini Azad Hüseyn oğlu Hüseynova verilmiş torpağa mülkiyyət hüququna dair JN-215 (Kod 50921018) nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

●Borsunlu kəndində Akif Məhəmmədəli oğlu Tahirova verilmiş torpağa mülkiyyət hüququna dair JN-646 (Kod 50907018) nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

●Alpoud kəndində Livarə Ağamməd qızı Məmmədovaya verilmiş torpağa mülkiyyət hüququna dair JN-0021 (Kod 50920028) nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

REDAKTOR
Xuraman Vaqif qızı

Ünvanımız:2200 Goranboy şəhəri, İlham İsmayılov küçəsi, 31.
mubariz.goranboy@gmail.com
(022) 24-5-19-33
Mob: 051 443 23 60

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 300

Təsisçilər Goranboy rayon İcra hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

“MÜBARİZ”
Sifariş 34
Qeydiyyat nömrəsi 490